


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

24 avqust 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 32 (3646)

# Münasibətlərimiz strateji tərəfdaşlığa çevrilir

## Azərbaycan - Özbəkistan əlaqələri yeni mərhələyə qədəm qoyur

**Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan ilə münasibətlərin inkişafı xüsusi yer tutur.**



Özbəkistan prezidenti Şavkat Mirziyoyevin 22-23 avqust tarixlərində Azərbaycana planlaşdırılan səfəri də bu mütərəqqi əməkdaşlığın daha bir sübutudur.

Prezidentlərin təkbətək görüşündən sonra keçirilən geniş tərkibli görüşdə bir çox istiqamətlər üzrə ikitərəfli əməkdaşlıq üçün artıq ciddi baza yaradıldığı, dövlət strukturlarının nümayəndələri arasında sıx qarşılıqlı fəaliyyətin olduğu diqqətə çatdırılıb. Beynəlxalq platformalarda, eləcə də energetika, nəqliyyat sahələri üzrə və bütövlükdə iqtisadi qarşılıqlı fəaliyyətdə görülmüş yüksək qiymətləndirilib.

Görüşdə xarici işlər nazirləri, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə hökumətlərarası komissiyanın sədri, energetika, nəqliyyat və kənd təsərrüfatı nazirlərinin məruzələri dinlənilib. Həmçinin siyasi, iqtisadi, ticarət, sənaye, avtomobil istehsalı, metallurgiya, əczaçılıq, daşımalar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Birbaşa aviareyslərin artmasından məmnunluq ifadə olunub, həftədə 15 reysin həyata keçirildiyi bildirilib.

### Mühüm sənədlər imzalanıb

Geniş tərkibdə görüş başa çatdıqdan sonra prezidentlər "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə"ni imzalayıblar. Sonra iqtisadiyyat, rəqəmsal inkişaf və nəqliyyat, energetika, mədəniyyət və xarici işlər nazirlikləri arasında 20 sənəd imzalanıb.

Prezident İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin mətbuata bəyanatlarında yer alan bəzi məqamlar diqqətləri üzərinə çəkib. Prezident İlham Əliyev prezident seçildikdən sonra həmkarının ilk dövlət səfərini Azərbaycana etməsini, imzalanan mühüm strateji sənədləri hər iki qardaş ölkə arasında daha da dərinləşəcək strateji tərəfdaşlığın təməli kimi qiymətləndirib.

İnanırıq ki, səfər zamanı Füzulidə Özbəkistan tərəfindən inşa olunmuş 960 şagird yerlik Mirzə Uluqbəy adına 1 nömrəli məktəbin, eləcə də yeni tikilmiş bir sıra obyektlərin açılışları və yeni layihələr "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə"nin tarixi bir sənəd kimi əhəmiyyətini daha da artıracaq.

# Bizi heç bir güc dayandıra bilməz

## Vətən müharibəsindən sonra diplomatik cəbhədə də qələbələrimizin sayı artır

Bölgədə sülhün nizamlanması, əmin-amanlığın bərqərar olması üçün Azərbaycanın dünyanın böyük güclərinə müraciətlərinin susqunluqla qarşılanması Vətən müharibəsindən sonra onları reallıqla üzbəüz qoydu.

Ermənistanın BMT-yə Qarabağda humanitar böhran iddialı müraciətinə əsasən avqustun 16-da bu qurumun Təhlükəsizlik Şurasında keçirilmiş müzakirə uğursuzluqla nəticələndi. İclasda Qarabağda humanitar böhran, Laçın–Xankəndi yolunun açılması, yəni, faktiki olaraq ölkəmizin şərti sərhəddə qurduğu nəzarət-buraxılış məntəqəsinin əhəmiyyətsizliyinin göstərilməsinə dair hər hansı digər sənədin qəbul edilməməsi göstərdi ki, haqq nəzilər, amma üzülməz.

### Faktlar diqtə edir

Ölkəmizin qurumdakı mövqeyi ilə bir daha sübuta yetirildi ki, Ermənistanın ətrafında böyük ajiotaj qaldırdığı Qarabağda humanitar böhran şousuna birmənalı yanaşma yoxdur. Dünyanın aparıcı qütbləri prinsip etibarilə Azərbaycanın ərazi bütövlüyü prizmasından çıxış etdilər. Hətta, bir çox məqamlarda ABŞ və Rusiya nümayəndələrinin nitqlərində bəzi detallar nəzərə çarpsa da, Azərbaycanın qəti mövqeyi ilə hesablaşdılar. Türkiyənin münasibəti birbaşa ölkəmizin xeyrinə idisə, digər dövlətlər təxminən bunu dedilər: biz güclünün haqqını tanıyırıq. Ən pis halda güclünün haqqının tapdanmasına razı deyilik. Güclü isə Azərbaycandır. Azərbaycan həm də ona görə güclüdür ki, onun mövqeyi beynəlxalq hüququn prinsiplərinə əsaslanır. BMT-də Ermənistanın, ermənipərəst dairələrin Qarabağ ermənilərinə qarşı soyqırımı iddiası da iflasa uğradı. Əksinə İrəvanın və havadarlarının Laçın dəhlizi məntiqinə qarşı Azərbaycanın irəli sürdüyü Ağdam–Xankəndi yolundan istifadə bölgənin erməni əhalisinin təminatı baxımından mühüm vasitə kimi düşüncələrdə möhkəmlənib. İndiki halda bu möhkəmlənmə Azərbaycanın adına böyük uğur kimi qiymətləndirilməlidir.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev avqustun 21-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyindəki bəzi qurumlarda cari təmir işləri üçün vəsait ayrılması haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev avqustun 18-də Masallı rayonunun Ləngən–Əhmədli–Təklə–Köcəkli, Bala Təklə–Şərəfə və Öncəqala–Hüseynhacılı–Viləş–Xallıcalı–Dəlləkli–Qədirli avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev avqustun 17-də Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev avqustun 17-də Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işləri üçün maliyyə vəsaiti ayrılması haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev avqustun 14-də milli bayram - Müstəqillik Günü münasibətilə İndoneziya və Qabon Respublikalarının prezidentlərinə təbrik məktubu ünvanlayıb.

# Haqq, ədalət uğurlarımızın təməlidir

## Azərbaycanın Avroatlantik məkana inteqrasiyası Ermənistanı və onun havadarlarını qorxuya salır

Dövlət başçımızın Avqustun 20-də Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Budapeştə işgüzar səfəri hər iki ölkə arasında dostluq bağlarını daha da möhkəmləndirib. Görüşdə Baş nazir Viktor Orban səfərə dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Macarıstanın Milli günü münasibətilə təbriklərini çatdıran dövlətimizin başçısı bu ilin yanvarında bu ölkəyə səfərini və səfər zamanı aparılmış səmərəli müzakirələrin vacibliyini vurğulayıb. Macarıstanın Baş nazirini Azərbaycana səfərə dəvət edən Prezident İlham Əliyevin dəvəti minnətdarlıqla qəbul olunub.

Görüşdə bir çox sahədə əməkdaşlığın uğurla inkişafı, Azərbaycan qazının Macarıstan bazarına çatdırılmasının əhəmiyyəti ifadə olunub. Macarıstan şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərində fəaliyyəti müsbət qiymətləndirilib.

Elm-təhsil sahəsində əməkdaşlığa diqqət çəkən dövlət başçılarının çıxışında xüsusilə Macarıstanda azərbaycanlı tələbələrə ali təhsil üzrə təqaüdlərin verilməsi təqdir olunub.

Söhbət zamanı, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Sazişin imzalanmasının və Qara dənizin dibi ilə elektrik xəttinin çəkilməsi layihəsinin həyata keçirilməsi istiqamətində səylərin davam etdirilməsinin önəmindən danışılıb, Orta Dəhlizin əhəmiyyətindən məmnunluq ifadə olunub. Görüşdə ölkələrimizin Türk Dövlətləri Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı qeyd edilib.

Avqustun 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü xanım Jelka Tsviyanoviç və Serb Respublikasının Prezidenti Milorad Dodik ilə də görüşü olub. Avqustun 20-də Budapeştdəki Milli Atletika Mərkəzində atletika üzrə dünya çempionatının kişilər arasında 100 metr məsafəyə qaçış yarışının finalını dövlət başçıları birlikdə izləyiblər.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Macarıstanın Milli bayramı - Müqəddəs Stefan Günü münasibətilə verilən ziyafətdə iştirak ediblər. Avqustun 21-də ölkəmizin başçısının Macarıstana rəsmi səfəri başa çatıb.

Zəmanəmizin böyük Azərbaycanlısı 2

Sıralarımız daha da güclənir 2

Sınaqlardan keçən ömür 3

Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

## Füzuliyə və Laçına qayıdış davam edir

“Böyük Qayıdış” proqramı uğurla icra olunur. Keçmiş məcburi köçkünlər zorla ayrıldıqları dədə-baba yurdlarına indi sevinc hissilə qayıdırlar. Avqustun 18-də Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış 23 ailə - 90 nəfər, avqustun 21-də 24 ailə - 68 nəfər, avqustun 22-də isə daha 23 ailə - 89 nəfər Füzuli şəhərinə köçürülüb. Bununla da Füzuli şəhərində 70 ailə, yəni, 247 nəfərin daimi məskunlaşması təmin edilib.

Daha bir köç karvanı isə Laçın istiqamətinə yön alıb. Avqustun 20-də 46 keçmiş məcburi köçkün Laçın şəhərinə yola düşüb. Bu mərhələdə Laçın şəhərinə 13 ailə köçürülüb. Köçürülən ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar. Bununla da Laçın şəhərində 234 ailənin, yəni 904 nəfərin daimi məskunlaşması təmin edilib.

## Ölkəmizin qeyri-neft ixracı 17,8 faiz artıb

Bu ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft ixracının dəyəri 2 milyard 6,9 milyon ABŞ dolları təşkil edib. Bu da ötən ilin analoji dövrü ilə müqayisədə 17,8 faiz çoxdur.

Təkcə bu ilin iyul ayında Azərbaycandan 233,55 milyon ABŞ dollarından çox qeyri-neft məhsulları ixrac edilib. Bu da ötən ilin eyni ayı ilə müqayisədə 0,5 faiz çoxdur.

## Elektron xidmətlər həyatımızı asanlaşdırır

Bu ilin yanvar-iyul aylarında sosial sahələr üzrə elektron xidmətlərə 10 milyon 350 min müraciət qeydə alınıb. Müvafiq dövrü əhatə edən məlumatda hazırda sosial sahədə 153 xidmətdən 140-dan və ya 90 faizdən çoxunun e-qaydada təqdim edildiyi, həmçinin digər qurumların informasiya bazaları ilə inteqrasiya prosesinin təmin olunduğu əksini tapıb. Cari ilin 7 ayında mərkəzləşmiş informasiya sistemlərinə həmin qurumlardan daxil olan sorğu sayı 146 milyon olub.

Son illərin mühüm rəqəmsal sosial nailiyyətlərindən olan e-sosial internet portalından isə yanvar-iyul aylarında 4 milyon 537,4 min dəfə istifadə olunub.

## Tapılan qalıqların kimlərə aid olması araşdırılır

İndiyədək Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən 500-ə yaxın şəxsə aid meyit qalığı aşkar edilib.

Onlardan 120-si üçtərəfli Bəyanatdan sonra ermənilər tərəfindən qarışıq halda təqdim edilib. Mütəxəssislər tərəfindən aparılmış araşdırmalar və təyin edilmiş müvafiq ekspertizalar nəticəsində məlum olub ki, bu qalıqlar bütün normalar pozularaq, kobud və qeyri-peşəkar şəkildə qazılaraq çıxarılıb və qarışıq halda kisələrə yığılaraq təhvil verilib. Ermənilərin insan qalıqlarına belə münasibəti həmin qalıqların eyniləşdirilməsində ciddi çətinliklər yaradır.

## Bu il 30 mindən çox şəxsə əlillik təyin olunub

Azərbaycanda 2023-cü ilin yanvar-iyul ayları ərzində 30,1 min şəxsə əlillik təyin edilib. Onlardan 14,7 mininə ilkin, 15,4 mininə təkrar əlillik təyinatı aparılıb:

Əlilliyin qiymətləndirilməsi elektron sistem üzərindən, səhiyyə müəssisəsinin e-sistemə daxil etdiyi göndərişlərdəki məlumatlar əsasında həyata keçirilir. Əlillik təyinatından sonra e-sistem üzərindən əlilliyə görə proaktiv qaydada sosial ödənişlər təyin edilir.

## Meşə fondu zənginləşir

Respublikanın meşə fondu torpaqlarında payız əkin mövsümündə meşəbərpa tədbirlərinin həyata keçirilməsi məqsədilə Regional Meşə Təsərrüfatı mərkəzlərinin xidməti ərazilərində torpaq hazırlığı işləri davam edir.

Əkin mövsümü ilə əlaqədar Ağcabədi, Bərdə, Sabirabad, Şəki, Göygöl, Quba, Şabran, Tovuz, Şəmkir, İsmayıllı, Oğuz, Lənkəran və Cəlilabad rayonlarının meşə fondu torpaqlarının açıq sahələrində bu günədək ümumilikdə 203 hektar ərazidə torpaq hazırlığı işləri aparılıb.

Plana uyğun olaraq hər bölgənin torpaq-iqlim şəraitinə uyğun 1,5 milyon tingin- palıd, fıstıq, vələs, ağcaqayın, qarağac, çinar, cökə, göyrüş və digər müxtəlif cinsli ağacların əkilməsi nəzərdə tutulub.

# Zəmanəmizin böyük Azərbaycanlısı

### Onun mübarizəsi xalqımızı azadlığına, dövlətimizi müstəqilliyinə qovuşdurdu



**Azərbaycanda sabitliyin bərqərar edilməsi islahatların aparılmasına, iqtisadiyyatın bərpasına və inkişaf etdirilməsinə əlverişli zəmin yaratdı.**

*(Əvvəli ötən sayımızda)*

Həmin dövrdə insanların inamını qaytarmaq, qarşıda duran böyük problemləri həll etmək üçün asayişin, ictimai sabitliyin bərpa olunması başlıca şərt idi. Ulu öndərin rəhbərliyi altında respublikada tüğyan edən, sabitlik üçün təhlükə doğuran mütəşəkkil cinayətkarlığa qarşı uğurlu mübarizəyə, qanunsuz silahlı birləşmələrin zərərsizləşdirilməsinə başlanıldı. Vətəndaşlarımızın dinc, rahat yaşamaları üçün lazım olan şərait yarandı, onların dövlətə, hüquq mühafizə orqanlarına inamı daha da artdı, ictimai-siyasi, həmçinin kriminogen durum nəzarətə götürüldü. Ölkədə sabitliyin yaradılması, cinayətkarlıqla barışmaz mübarizə tədbirləri ilə yanaşı daxili işlər orqanlarının şəxsi heyəti torpaqlarımızı işğal edən erməni hərbi birləşmələri ilə döyüşlərdə də iştirak edirdilər. Təsadüfi deyil ki, 1994-cü ilin yanvar ayının 5-dən 7-dək davam edən hərbi əməliyyatlar nəticəsində Füzuli rayonu istiqamətində Horadiz qəsəbəsi daxil olmaqla bir neçə kəndin işğaldan azad edilməsində DİN-in şəxsi heyəti böyük fədakarlıqlar göstərdilər. 1988-ci ildən başlamış torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə 1695 əməkdaş və hərbi qulluqçu şəhidlik zirvəsinə ucaldı, 1710 nəfər isə yaralandı. Göstərdikləri şücaət və igidliklərə görə 67 nəfər "Milli Qəhrəman" adına, 1143 nəfər orden və medallara layiq görüldü.

1994-cü ilin 29 aprel günü keçirilmiş müşavirə Azərbaycan daxili işlər orqanlarının həyatında əhəmiyyətli dönüş yaratdı. Ümummilli liderin həmin müşavirədəki tarixi çıxışında müəyyən etdiyi vəzifələr zamanın, yeni dövrün Azərbaycan Polisinə çağırışı idi. Ulu öndər həmin ilin avqust ayında imzaladığı “Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında” Fərmanla müvafiq sahədə görüləcək işlərin başlıca istiqamətlərini təyin etdi.

Qısa zaman kəsimində mötəbər beynəlxalq təşkilatların, Avropa ekspertlərinin rəyləri nəzərə alınmaqla “Polis haqqında”, “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, "Daxili Qoşunların statusu haqqında" qanunlar, “Daxili işlər orqanlarında xidmət keçmə haqqında” və “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında” əsasnamələr qəbul edildi. Ümummilli lider daxili işlər orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olan, o cümlədən insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərini tənzimləyən 34 qanun, 100-dən çox Fərman və Sərəncam imzaladı. Nazirlik sistemində islahatlar aparılaraq yeni qurumlar yaradıldı.

Dövlətçiliyin gündən-günə möhkəmlənməsindən, milli maraqlarımızın təmin edilməsindən təşvişə düşən ölkənin xaricində və daxildə olan bəzi qüvvələr mövcud ictimai-siyasi sabitliyi pozmaq, süni qarşıdurmalar yaratmaq və son nəticədə ölkəni müstəqil inkişaf yolundan döndərmək üçün ən qanlı yollara əl atırdılar. Ulu öndər xalqın gücünə arxalanaraq 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişi cəhdlərinin qarşısını alaraq müstəqilliyimizin qorunub saxlanılmasına nail oldu, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoyuldu.

Sabitliyin bərqərar edilməsi öz növbəsində islahatların aparılmasına, iqtisadiyyatın bərpasına və inkişaf etdirilməsinə əlverişli zəmin yaratdı. Xarici neft şirkətlərinin Azərbaycana inamını artırdı və həmin ilin sentyabrında respublikamızda iqtisadi uğurlarımızın təməlinə çevrilən “Əsrin müqaviləsi” imzalandı.

1992-ci illə müqayisədə 2002-ci ildə ölkədə qeydə alınan cinayətlərin açılması 67 faizdən 94,8 faizə yüksəldi, ümumi cinayətlərin sayı 30,9 faiz, o cümlədən qəsdən adamöldürmələr 2,7 dəfə, quldurluq və soyğunçuluqlar 3,7 dəfə, oğurluqlar 5,2 dəfə, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 7,2 dəfə, nəqliyyat vasitələrinin oğurluğu 25 dəfə, habelə bağlı qalmış cinayətlər 13 dəfə azaldı. 10 il ərzində daxili işlər orqanları tərəfindən əllərdə qanunsuz saxlanılan 30 mindən artıq silah yığıldı. Hər il orta hesabla qrup halında 1000-dən artıq cinayətkar dəstə zərərsizləşdirildi.

Əldə edilən nailiyyətləri polisin 80 illiyi münasibətilə şəxsi heyətə ünvanladığı təbrikdə dahi rəhbərimiz belə vurğulamışdı: **"Azərbaycan Polisi dövlətçiliyimiz əleyhinə yönəlmiş cinayətkar qəsdlərin və başqa qeyri-konstitusion əməllərin, vətəndaş qarşıdurmasının, kütləvi və mütəşəkkil cinayətkarlıq təzahürlərinin, cəzasızlıq mühitinin aradan qaldırılmasında önəmli xidmətlər göstərmişdir... Əlamətdar haldır ki, daxili işlər orqanlarının şəxsi heyəti bütün bu proseslərdə Azərbaycan xalqının, Azərbaycan dövlətinin maraqlarını, özlərinin vətəndaşlıq borclarını və xidmətin mənafeyini hər şeydən üstün tutmuşdur".**

*İlham Babayev*
*polis polkovniki*

# Sıralarımız daha da güclənir

### Dünən səngərdə idilər, bu gün isə asayişi və sabitliyi qoruyurlar

**Zəfər qazandığımız gündən bu günə kimi 820 nəfər Vətən müharibəsi iştirakçısı və 142 nəfər şəhid ailəsinin üzvü daxili işlər orqanlarında işlə təmin olunub**

Tariximizə qızıl hərflərlə yazılan Vətən müharibəsində qəhrəmanlıqlara imza atan igid oğullarımıza, onların ailə üzvlərinə dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı göstərilir, sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür.

Ötən müddət ərzində müharibə iştirakçıları mənzillər və fərdi evlərlə təmin olunub, onların psixoloji, sosial-tibbi reabilitasiyası, sanator-kurort müalicəsi, protezləşdirilməsi, əlil arabaları, o cümlədən, mühərrikli əlil arabaları ilə təchiz olunması, bərpa müalicələrinin keçirilməsi dövlət hesabına yüksək səviyyədə həyata keçirilir.

Vətən müharibəsi iştirakçıları və şəhidlərin ailə üzvlərinin işlə təmin olunmasında dövlətimizin qayğısı prioritetlərdəndir.

Bu sahədə həyata keçirilən tədbirlər Daxili İşlər Nazirliyində də sistemli və ardıcıl xarakter daşıyır. Şəhid ailələri və müharibə iştirakçılarının sosial rifahının yaxşılaşdırılması istiqamətində məqsədyönlü addımlardan biri də işlə təmin olunmalarıdır. Belə ki, Zəfər qazandığımız gündən bu günə kimi 820 nəfər Vətən müharibəsi iştirakçısı və 142 nəfər şəhid ailəsinin üzvü daxili işlər orqanlarında işlə təmin olunub.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Təhlükəsizlik tədbirləri uğurla icra olunur

### Azərbaycan Polisi bu sahədə kifayət qədər təcrübəyə malikdir




Bakıda avqustun 15-dən start götürən atıcılıq üzrə 53-cü dünya çempionatı gərgin idman şəraiti və həyəcanlı anlarıyla davam edir. “Paris-2024” Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq uğrunda dünyanın 100 ölkəsindən 1239 idmançının mübarizə apardığı yarışda ölkəmiz 16-ı kişi, 15-i qadın olmaqla ümumilikdə 31 idmançı ilə təmsil olunur. Komandamızın tərkibində çempionluğa iddiaçılar sırasında daxili işlər orqanlarının da 7 əməkdaşı var. Onlardan 5-i Ramiz Xəlilov, Əli Hüseynli, Mirmömin Ağazadə, İlkin Vəliyev və Vladislav Kalmıkov hazırda DİN Daxili Qoşunlarında müddətli həqiqi hərbi xidmətdədirlər.

Şübhəsiz ki, belə mötəbər turnirlərdə ən vacib məqam yarış iştirakçılarının, eləcə də keçiriləcək məkanlarda təhlükəsizlik tədbirlərinin təşkilidir. Bu sahədə kifayət qədər təcrübəyə malik Azərbaycan Polisi yüksək nizam-intizamla həvalə olunmuş vəzifələri uğurla icra edir. Yarışın keçirildiyi məkanlarda, idman komplekslərində ictimai qaydanı və təhlükəsizliyi yüksək səviyyədə qoruyur, bütün zəruri tədbirləri həyata keçirir.

*Teymur Əlizadə*
*polis mayoru*

# Bayraq sevgisi

## Vətənə xidmət, dövlətə sədaqət də bayraq kimidir: hər zaman uca tutulmalıdır

Şəhid evlərini indi bayraqlar nişan verir. Övladını bayraq, xalq, Vətən, torpaq uğrunda itirən ata, ana istəyir ki, onlardan yadigar qalan bayraqlar ocağının üstündə dalğalansın.



Müqəddəslik adına əmanət qalan hər nə varsa bütün unutqanlıqların üstündən xətt çəkir. Səmavi kitablar bizə Haqqın əmanəti deyilmi? Unudulubmu, yaddan çıxıbmı? O dalğalanan bayraqlar, o bayraqları bayraq edən tökülən qanlar da arzularına şahidlik etdiyimiz ömrü yarıda qalanları unudulmağa, yaddan çıxmağa qoymur…

Elə bu günlərdə sosial şəbəkə istifadəçilərindən birinin "Facebook" səhifəsində paylaşdığı videoda şəhid polkovnik Babək Səmidlinin evinin önündə asılan, istidən, soyuqdan rəngi bozaran bayraqları yenisi ilə əvəz edən gənc polis əməkdaşları heç kimdən "çox sağ ol", "afərin" gözləmirdi. Onlar öz müqəddəs borclarını yerinə yetirirdilər.

O bayraqlar Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Füzulidə dalğalananda düşmənin ürəyi qübar bağlayır, bağrı çatlayır. Bayrağımız uğrunda qanından, canından keçənlərin ruhu şad olsun deyə kimliyindən, tutduğu mövqedən asılı olmayaraq bu gün hər birimiz ürəkdən "Mən Azərbaycanlıyam" deyiriksə, deməli, bu üç rəngili bayraq hələ çox zirvələr fəth edəcək və bizi bir məqsəd uğrunda birləşdirəcək.

Onları, səngərsiz əsgərləri dost da gördü, düşmən də. Düşmənlərimiz isə o görüntüləri dönə-dönə öz uşaqlarına göstərib deyəcəklər: "İllər öncə də belə idi Azərbaycan xalqı, bu gün də: Bayrağına, dilinə, dininə sayğı duyan, onu qoruyan"...

***Hafiz Təmirov***
***polis polkovnik-leytenantı***

# Sınaqlardan keçən ömür

## İllərin o üzündən fədakar xidmət boy verir

**Yetmiş beş yaşlı veteranımız deyir ki, ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı əməkdaşlarımıza, o cümlədən gənclərə daha yaxşı işləmək və özünü müsbət tərəfdən göstərmək imkanı verir.**



Tale hamı kimi onu da çox sınaqlara çəkib. Bərkə-boşa düşsə də bu sınaqlardan ləyaqətlə çıxmağı bacarıb. Ömrünün uzun illərini daxili işlər orqanlarında xidmətə həsr edib. Dincəlmək bilmədən, bütün bilik və bacarığını səfərbər edərək, hər bir işi uğurla başa çatdırmağa çalışıb. Təkcə çalışdığı xidmətlərdə kollektivin deyil, məğrurluğu, bacarığı ilə çoxlarının hörmətini, izzətini qazanıb.

DİN Veteranlar Şurası sədrinin müavini, istefada olan polis polkovniki Ramiz Axundov 1948-ci ildə avqustun 29-da Şirvan şəhərində doğulub. Hələ orta məktəbdə oxuyarkən fəallığı və təşkilatçılıq bacarığı ilə seçilib. Moskva Koorperasiya institutunu 1975-ci ildə bitirdikdən sonra 1977-ci ildə Bakı Ali Partiya Məktəbinə daxil olub. 1984-1987-ci illərdə Bakı Xüsusi Orta Milis Məktəbində təhsil alan R.Axundov oranı bitirdikdən sonra taleyini daxili işlər orqanlarında xidmətə bağlayıb. Xidmət etdiyi dövrdə bir çox mükafatlara layiq görülüb. O cümlədən 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İgidliyə görə" medalı ilə təltif olunub.

Daxili işlər orqanlarında müxtəlif vəzifələrdə çalışan Ramiz müəllim təqaüdə çıxdıqdan sonra da əli işdən soyumayıb. O, bu gün də gənc əməkdaşların peşə vərdişlərinin artırılması, onlarda dövlətə və dövlətçiliyə, anda, xidməti vəzifə borcuna sədaqət hissinin formalaşdırılmasında bilik və bacarığını səfərbər edir.

Yetmiş beş yaşlı veteranımız deyir ki, ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı əməkdaşlarımıza, o cümlədən gənclərə daha yaxşı işləmək və özünü müsbət tərəfdən göstərmək imkanı verir. Ona görə gənc əməkdaşlar indi daha səylə və məsuliyyətlə çalışmalı, bu yolda ağsaqqal həmkarlarının da bilik və bacarıqlarından yararlanmalıdırlar.

Hörmətli veteranımızla görüşümüz yubileyi ərəfəsinə düşdü. Səsində bir kövrəklik olsa da, qürurla danışdı öz həyat hekayəsini. İlk və son sözü o oldu ki, gərək hər bir insan öz işinə vicdanla yanaşsın, əli, ürəyi zəhmətlə bərkisin. Onda həyatda yaşamaq həm asan olur, həm də mənalı...

Biz isə öz növbəmizdə ürəyi yaşayıb-yaratmaq eşqi ilə döyünən həmkarımıza yenə də gözəl, mənalı illər, ən əsası, cansağlığı arzulayırıq.

***Aytəkin Nəcəfova***
***polis polkovnik-leytenantı***

# Müasir dövrün cinayət metodu – Kibercinayətkarlıq

## Daxili işlər orqanları istənilən cinayət növünə qarşı mübarizəni uğurla həyata keçirir

Heç bir cəmiyyət cinayətdən sığortalanmayıb. Əsas məsələ törədilən cinayətlərin açılması və törədilə biləcək ağır cinayətlərin qarşısının alınmasıdır. Təbii ki, cinayətkar maskalanmağa, cəzadan yayınmağa çalışır. Ancaq peşəkar fəaliyyəti nəticəsində törədilmiş istənilən cinayətin üstü tez bir zamanda açılır, təqsirkarlar mövcud qanunvericiliyin tələbləri əsasında məsuliyyətə cəlb olunur. Bir sözlə, polis əməkdaşları tərəfindən vətəndaşların hüquq və azadlıqları, qanuni mənafeləri hüquqazidd qəsdlərdən yüksək səviyyədə qorunur.

Günümüzün reallıqlarına nəzər saldıqda isə cinayətlərin törədilməsində məzmun dəyişikliyinin baş verdiyini, yeni metodların formalaşdığını görürük. Yəni, bu gün internet resursları üzərindən çirkin fəaliyyətlərini həyata keçirən cinayətkarlar həm də özlərini "qorumağa" çalışırlar. Əlalxüsus son dövrlər internet üzərindən narkotiklərin qanunsuz dövriyyəsinin, narkotik vasitələrin alışının, satışının, eyni zamanda mülkiyyət əleyhinə olan cinayətlərin statistikasında artım müşahidə olunur.



Azərbaycan Polisi virtual mühitdə də baş verən cinayətlərə, eləcə də ağır nəticələnə biləcək hallara qarşı qətiyyətli mübarizəsini uğurla həyata keçirir, sözügedən əməlləri törədənləri ifşa edir, paralel olaraq mediada bu kimi hallardan uzaq durmaları üçün vətəndaşlarla mütəmadi olaraq maarifləndirmə işləri aparır, dələduzların tələsinə düşməməyə, aldadıcı vədlərinə inanmamağa çağırışlar edir. Eyni zamanda, hansısa bir təhdid və təhlükə ilə üzləşdikdə dərhal polisə müraciət etmələrini diqqətə çatdırır.

Polisin bütün bu gərgin əməyi, gecəli-gündüzlü xidməti isə dövlətə, dövlətçiliyə və vətəndaş məmnunluğuna xidmət edir.

***Teymur Əlizadə***
***polis mayoru***

# Müraciətlər cavabsız qalmır

## Uşaqlarla bağlı hesabatda polisin fəaliyyəti xüsusilə diqqət çəkir

"Azərbaycan Uşaq Qaynar Xətt" xidməti 2023-cü ilin ilk 6 ayını əhatə edən hesabatını açıqlayıb. Hesabatda qeyd olunur ki, Xidmətə müxtəlif çətinliklərlə üzləşən, həmyaşıdları ilə problem yaşayan, psixoloji və mənəvi yardıma ehtiyacı olan uşaqlardan ümumilikdə 2300-ə yaxın zəng daxil olub.

Müraciətlərin böyük hissəsi, 700-ə yaxın zəng, hüquqi prosedurları əhatə edib. Təhsillə bağlı 636, psixoloji problemlərə dair 610, sosial məsələlərlə bağlı 170, səhiyyə ilə bağlı 100-ə yaxın müraciət daxil olub. Zənglərin qalan hissəsi digər sahələrə aiddir.

Müvafiq dövr ərzində müraciətinin araşdırılması zəruri olan 85 ailə mərkəzə dəvət olunub, problemlərindən asılı olaraq onlara hüquqi, psixoloji və psixososial yardım göstərilib, uşaqlarla isə 152 sosial-psixoloji reabilitasiya işi həyata keçirilib. Digər qurum və ictimai təşkilatların səlahiyyətinə aid müraciətlər aidiyyəti üzrə yönləndirilib.

Xidmət tərəfindən Daxili İşlər Nazirliyinə yönləndirilən müraciətlərin həlli istiqamətində görülən işlərlə bağlı DİN Baş İctimai Təhlükəsizlik İdarəsinə şifahi sorğu ünvanladıq. Baş İdarədən bildirdilər ki, "Azərbaycan Uşaq Qaynar Xətt"indən daxil olan 32 müraciətin 3-ü insan alveri, 9-u cinsi zorakılıq, 20-si isə fiziki zorakılıqla bağlıdır.

***"Polis"***

# "Ağ ölüm"lə mübarizə davam edir

## Genefondumuzu məhv etmək istəyənlərin qarşısı qətiyyətlə alınır




**Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsi son 45 gün ərzində "qara bazar"da dəyəri 32 milyon manat olan 400 kiloqram narkotik vasitəni qanunsuz dövriyyədən çıxarıb.**

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları son 45 gündə İrandan qaçaqmalçılıq yolu ilə ölkəyə narkotik vasitələr göndərən mütəşəkkil dəstənin Azərbaycandakı üzvlərinə, eləcə də daxildə narkotiklərin satışını təşkil edən şəxslərə qarşı Bakı və respublikanın digər bölgələrində silsilə əməliyyatlar keçiriblər.

Bu sahədə Baş İdarə əməkdaşlarının keçirdikləri sonuncu əməliyyatlar zamanı mütəşəkkil dəstənin üzvləri - Azər Bədəlov, Əmrah Əlizadə, Nurlan Bayramov, Elmin Məmmədov, tanışı Qüdrət Həsənov və Samirə Novruzəliyeva saxlanılıblar. Onlardan 20 kiloqram heroin, 29 kiloqram marixuana, 10 kiloqram tiryək və 8 kiloqram metamfetamin olmaqla ümumilikdə 67 kiloqram narkotik vasitə və psixotrop maddə aşkar edilib. Bu şəxslər İrandan qanunsuz yollarla göndərilən narkotiklərin əsas tədarükçülərindən olublar.

Qeyd edilən dövrdə Baş İdarə tərəfindən keçirilən əməliyyatlar zamanı ölkə ərazisində narkotiklərin qanunsuz dövriyyəsini təşkil edən ümumilikdə 66 nəfər saxlanılıb. Qanunsuz dövriyyədən "qara bazar"da dəyəri 32 milyon manat olan 400 kiloqram narkotik vasitə - heroin, tiryək, həşiş, tərkibi psixotrop maddələrlə zənginləşdirilən marixuana, metamfetamin, eləcə də 7300 ədəd metadon həbi çıxarılıb.

### Narkokuryerlərə daha bir zərbə

Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşlarının Ələt-Astara magistral yolunun rayon ərazisindən keçən hissəsində həyata keçirdikləri əməliyyat tədbiri zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən Astara rayon sakinləri Elçin Əbilov, Orxan Qəmbərov və Elşən Babayev saxlanılıblar. Onlardan 4 kiloqram heroin, 3 kiloqram metamfetamin, 10 kiloqram tiryək olmaqla ümumilikdə 17 kiloqram narkotik vasitə və psixotrop maddə aşkar olunaraq götürülüb.

Şöbə əməkdaşlarının rayon ərazisində keçirdikləri digər əməliyyat tədbiri nəticəsində isə Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Kənan Əlizadə saxlanılıb. Bu şəxsdən isə 2 kiloqrama yaxın psixotrop maddə olan metamfetamin aşkarlanaraq götürülüb.

Araşdırma zamanı saxlanılan şəxslərin İranda yaşayan narkotacirlər vasitəsilə narkokuryerliyə cəlb edildikləri müəyyən edilib.

# Reydlər davam etdirilir

## Məqsəd ətraf mühiti qorumaqdır

Ətraf mühitin qorunması, ekoloji tarazlığın bərpası istiqamətində maarifləndirmə ilə yanaşı, qanunvericiliyə uyğun ciddi addımların atılması insanlar tərəfindən rəğbətlə qarşılanır. Bu günlərdə Hacıqabulda və Ağcabədidə bələdiyyə sədrləri, Qubada isə antisanitar vəziyyət yaradan iki nəfər şəxs barəsində inzibati protokol tərtib olunub.

Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə keçirilən tədbirlər zamanı rayonun Muğan qəsəbəsi ərazisində sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi faktları aşkarlanıb.

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbir zamanı da rayonun Kəhrizli kəndində məişət tullantılarının qalaqlanması zamanı ətraf mühitin mühafizəsinin tələblərinə əməl edilməməsi müəyyən olunub. Hər iki faktla bağlı ərazi üzrə bələdiyyə sədrləri barəsində müvafiq tədbirlər görülüb.

Quba Rayon Polis Şöbəsinin İctimai Təhlükəsizlik Bölməsinin əməkdaşları isə məişət tullantılarını urnalardan kənara atan, ərazidə antisanitar vəziyyət yaradan iki nəfəri müəyyən ediblər. Onlarla profilaktiki söhbətlər aparılıb və barələrində qanunamüvafiq tədbir görülüb.

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi müvafiq qurumlarla birlikdə Astara rayonunda da analoji tədbir keçirib. Faktlarla bağlı tələbləri pozan ümumilikdə 6 fiziki, 4 vəzifəli şəxs, o cümlədən ərazi üzrə iki bələdiyyənin sədri, iki istirahət mərkəzinin sahibi barəsində inzibati tənbeh tədbiri tətbiq olunub.

# Daxili İşlər Nazirliyi müsabiqə elan edir

## Xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcək

**Daxili İşlər Nazirliyi Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə bilavasitə tabe olan Lənkəran, Masallı, Salyan "ASAN Xidmət" mərkəzləri üzrə regional qruplarda vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xanımların qəbulunu elan edir.**

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirən, əvvəllər özü və yaxın qohumları qəsdən törədilən ağır cinayətlərə görə məhkum edilməyən cənub bölgəsi üzrə rayonlarda qeydiyyatda olan vətəndaşlar iştirak edə bilərlər.

Onlar müəyyən edilən normalar üzrə yoxlanılacaq, xarici dillərdən birini sərbəst bilən və kompüterlə işləmək qabiliyyətinə malik namizədlərə üstünlük veriləcəkdir.

**Müsabiqədə iştirak etmək istəyən xanımlar 2023-cü ilin avqustun 28-dək Lənkəran rayonunun Göyşaban kəndində yerləşən Daxili İşlər Nazirliyinin müvafiq Baş İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsinə müraciət edə bilərlər.**

Əlavə məlumat almaq istəyən şəxslər **(012) 590-64-41** nömrəsinə zəng edə bilərlər.

# Çoxnövçülük üzrə yarış keçirilib

## Fiziki hazırlığın yüksək səviyyədə olması diqqət mərkəzindədir

DİN İdman Cəmiyyətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş silsilə idman tədbirləri davam etdirilir. Növbəti yarış avqustun 18-19-da Sumqayıt Olimpiya İdman Kompleksində idmanın çoxnövçülük növü üzrə bölgə polis orqanları arasında keçirilib. Turnirdə Sumqayıt, Abşeron, Şamaxı, Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Zəngilan və Qubadlı şəhər, rayon polis orqanlarının hər birindən 4 əməkdaş olmaqla ümumilikdə 44 idmançı iştirak edib.

İdmançılar proqramda müəyyən olunmuş üzgüçülük, 1000 metr məsafəyə qaçış və turnikdə dartınma üzrə normativləri yerinə yetiriblər. Hər üç normativin cəminin nəticəsində aktivinə ən çox xal toplamış iştirakçılar yarışın qalibləri olub.

Qaliblər münsiflər tərəfindən diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, turniri İdman Cəmiyyətinin idman təşkili bölməsinin baş inspektoru, polis



polkovnik-leytenantı Aydın Həşimov və fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis polkovnik-leytenantı Dəyanət Ağayev idarə ediblər.

*Ə.Teymur*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Agentin etirafları

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

***1828-ci ildə Vidokun elmi-fəlsəfi memuar xarakterli "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərləri Onore de Balzakın yazdığı ön sözlə nəşr olunub. Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri tərbiyəvi mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Bunu nəzərə alaraq, hələ bir neçə il əvvəl Vidokun "Parisin sirləri", "Oğru: əxlaq və psixologiya" əsərlərindən parçaların ilk dəfə Azərbaycan dilinə tərcüməsinə başlamışdıq. Üzərindən uzun illər, onilliklər ötsə də, bu "konstitusiya" qüvvədən düşmür. Odur ki, yenidən və daha təfsilatlı tərcümə ilə əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarına qayıdırıq.***



Mən də çuxurdan çıxıb həyətə daxil oldum, ətrafa baxdım və heç yerdə yanan işıq görmədim.

Bilirdim ki, Delzevin əlaltıları adətən bir-birinə faytonçular kimi fit çalmaqla xəbərləşirlər. Mən onların tərzində fit çaldım və ikinci dəfə səs eşitdim.

-Kim çağırır?

-Bu "Ocaqçı"dır (Delzevin öyrətdiyi faytonçunun ləqəbi), "Xərçəngi" çağırır.

-Bu sənsənmi? – bir daha Delzevin səsi eşidilir.

-Bəli, bəli. "Ocaqçı" səni görmək istəyir, aşağı düş.

-Bir dəqiqə gözlə gəlirəm.

-Çox soyuqdu – mən cavab verdim – gedim küçənin tinində kafedə səni gözləyim, sən də tələs, eşidirsən?

Şinkar artıq yeni ilin ilk günündə öz kafesini açmışdı. Delzevi aldatmaq üçün mən dəhlizin qapısını açdım, dəhlizə daxil olmadan tez qapını örtdüm və həyətə çıxan qara pilləkənin altında gizləndim. Tezliklə mən pilləkəndə Delzevin ayaq səslərini eşitdim. Birbaşa onun üstünə yeridim. Yaxasından tutaraq tapançanın lüləsini sinəsinə dirədim və qə-



tiyyətlə dedim ki, o, artıq mənim əsirimdir. Ardımca gəlməsini əmr etdim ki, hər hansı hərəkət etsə, başını güllə ilə dağıdacağam. Tək olmadığımı da dedim.

Təəccüb və qorxudan özünü itirən Delzev heç bir cavab vermədi və ardımca gəldi. Bu dəqiqədən artıq mən onu tabe etmişdim, o nə qaça, nə də müqavimət göstərə bilirdi. Mən tələsik onu apardım. Biz Roşe küçəsinə çatanda səhər saat altı olmuşdu. Yaxından fayton keçirdi, mən dayanmaq işarəsi verdim. Hansı vəziyyətdə olduğum aydın idi və faytonçu üst-başıma baxaraq aparmaqdan imtina etmək istədi, ancaq yaxşı qiymət təklif edib, ikiqat pul verib, şirnikləşdirib razı saldım. Artıq biz paytaxtın daş döşənmiş küçələri ilə hərəkət edirdik. Mən ehtiyatı əldən verməyərək əsirimin əl-qolunu bağlamışdım. Çünki ilk qorxu və təəccübdən sonra özünə gələrək müqavimət göstərə bilərdi. Mən gücümə arxayın olub, bunsuz da keçinə bilərdim. Ancaq mən onun əməkdaşlıq etməsinə nail olmaq istəyirdim və onunla mübahisə etmək niyyətində deyildim, fiziki zor tətbiq etmək istəmirdim. Amma onun tərəfindən hər hansı müqavimət olsaydı, zor tətbiq etməli olacaqdım. Mən Delzevin qaçmaq imkanının tam istisna edəndən sonra, onun özünü sakit aparmasına çalışırdım.

### Oğru Delzev agentə necə çevrilir

Delzev məlumatlı adam idi. Parisdə baş verən bütün cinayətlər haqqında məlumatı var idi. Bilirdim ki, o, əməkdaşlığa razı olsa, böyük işlər görmək olar. Fürsəti əldən verə bilməzdim. Faytonda ona yemək təklif etdim, o, da razılaşdı, faytonçu şərab verdi və biz qurtum-qurtum içə-içə yolumuza davam etdik. Mən Delzevə bizə ayrıca otaq verəcəkləri bir yerdə gedib yemək yeməyi təklif etdim – razılaşdı. Artıq sakitləşmişdi və hirsli görünmürdü. Təklifimi həvəslə qəbul etdi və mənə tanış olan mehmanxanaya getdik. Biz hələ ora çatmamış Delzev azadlıqda qalan dostları haqqında çox qiymətli məlumatlar verdi. Əmin idim ki, masa arxasında daha çox danışacaq və ona izah etdim ki, mərhəmət gözləməyin yeganə yolu bir neçə nəfəri ələ verməkdir. Onda bu fikri formalaşdırmaq məqsədilə yaxalanan şəxsləri sakitləşdirmək üçün tətbiq etdiyim fəlsəfəyə uyğun olaraq bir neçə arqumenti gətirdim.

Bir sözlə, artıq fayton mehmanxananın qapısına çatanda o, artıq bu əhvalda idi. Mən onu dərhal yuxarı apardım, özümdən qabağa buraxdım və masada əyləşməmişdən əvvəl rahat yeməsi üçün əllərini açdım, ancaq onu öz bildiyim kimi bağladım. O, bu ehtiyat tədbirindən incimədi, ayaqlarını döşəmədən azca yuxarıdan stulun ayaqlarına bağladım. Beləliklə, azad olmaq üçün heç cəhd belə edə bilməzdi. O, çox iştahla yedi və söz verdi ki, mənə etiraf etdiklərini cənab Anrinin iştirakı ilə də söyləyəcək.

*(Ardı var)*

# Suallar: Cinayətin üstü nə vaxt açılmış sayılır?

-İşin araşdırılması gedişində cinayət tərkibinin obyektini və obyektiv cəhətini xarakterizə edən hallar müəyyən edildikdə, konkret şəxsin cinayətin törədilməsində təqsirli olmasını təsdiq edən kifayət qədər sübutlar olduqda cinayətin törədilməsi üçün əsas fərziyədən başqa, bütün digər fərziyyələr rədd edildikdə.

### Cinayət tərkibi nədir?

-Cinayət tərkibi - konkret ictimai-təhlükəli əməli cinayət kimi xarakterizə edən əlamətlərin cinayət qanunu ilə müəyyən edilmiş məcmusudur. Cinayət hüquq nəzəriyyəsində cinayət tərkibini xarakterizə edən əlamətlər dörd qrupa bölünür: obyekt və obyektiv cəhəti xarakterizə edən əlamətlər (bunlar cinayət tərkibinin obyektiv əlamətləri adlanır), subyekt və subyektiv cəhəti xarakterizə edən əlamətlər (subyektiv əlamətlər).

### Cinayətin obyekti nədir?

- Cinayətin obyektini cinayət qanunu ilə mühafizə edilən o ictimai münasibətlər təşkil edir ki, onlara cinayət nəticəsində mühüm ziyan yetirilir və yaxud yetirilə bilər.

### Cinayətin obyektiv cəhəti nədir?

- Cinayətin obyektiv cəhətinə törədilmiş əməlin (hərəkət və yaxud hərəkətsizliyin) xüsusiyyətləri, bu əməlin nəticələri, yəni vurulmuş ziyan və cinayətin zahiri tərəfini xarakterizə edən digər əlamətlər, məsələn: yeri, vaxtı, üsulu, vasitəsi, şəraiti və s. aiddir. Obyektiv cəhətin əlaməti kimi əməl, iki formada çıxış edir: cinayətkar hərəkət və cinayətkar hərəkətsizlik.

### Cinayət təqibi nədir?

-Cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübut etmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan verir. Cinayət təqibi üzrə sübutların kifayət etməsi aşağıdakılara nail olunmasına kömək edir: ibtidai araşdırmanın və ya məhkəmə baxışının məqsədyönlü aparılmasına; cinayət təqibi üzrə məhkəmə perspektivinin vaxtında müəyyən edilməsinə; cinayət təqibi üzrə düzgün və əsaslı qərar qəbul edilməsinə. Sübutların məcmusunun toplanması aşağıdakılara gətirib çıxarmamalıdır; sübut materiallarının lüzumsuz artıq toplanmasına; ibtidai araşdırmanın və ya məhkəmə baxışının uzadılmasına – (CPM-in 146-cı maddəsi)

# Ünsiyyət qurmaq bacarıq, yoxsa vərdişdir?

## Polis olaraq bunları bilmək vacibdir və günün tələbidir

Cəmiyyət həyatına daxili işlər orqanlarının təmsilçisi kimi təsir etmə imkanlarımız böyükdür. Və bunun üzərinə vətəndaşlıq missiyamızı da gəlsək, deməli, ikiqat məsuliyyət daşıyırıq. Peşə fəaliyyətimiz insanlarla ünsiyyət üzərində qurulduğundan gözəl nitqə, inandırmaq bacarığına yiyələnməli, məhz bu kimi keyfiyyətləri inkişaf etdirmək üçün öncə güclü mütaliəyə malik olmalı, ekspertlərin tövsiyələrinə, ünsiyyət qurarkən psixoloji yanaşmalara diqqət yetirməliyik.

Unutmayaq ki, ünsiyyətin təməl prinsipləri xidməti fəaliyyətimizin açarıdır.

Təsiredici ünsiyyət üçün bunları bilməliyik:

1. Sürətli deyil, ancaq çox da yavaş olmayan bir templə danışın.
2. Danışmadan əvvəl nə demək istədiyinizi düşünün.
3. Bildiyiniz və sizin üçün əhəmiyyətli olan məsələlərdən danışın.
4. Mühüm sözləri və fikirləri vurğulamaq üçün səs tonunda enişlərə və çıxışlara yer verin.
5. Göz təması qurun. Göz təmasını düzgün qurmaq vacibdir. Göz təmasını qura bilməmək qarşındakı insanı narahat edə bilər. Göz təmasından qaçmaq da adamı özünə inamsız kimi göstərə bilər.
6. Əvvəl qulaq asın. Dinləyərkən başınızı tərpədərək təsdiqləyin.
7. Səmimi və nəzakətli olun.
8. Qulaq asanlara məsələnizin nə üçün vacib olduğunu izah edin.
9. Sıxıcı, monoton, lazımsız təkrar xarakterli sözlərdən diqqəti dağıdığı, maraq doğurmadığı üçün uzaq durun.
10. Texniki dillə danışmayın. Mənasını bildiyiniz sözləri istifadə edin.
11. Qısa, yığcam və konkret ifadələrin daha təsirli və yadda qalıcı olduğunu unutmayın.
12. Tənqidi, şəxsiyyətə deyil, davranış, düşüncə və vəziyyətlərə qarşı edin.

*(Ardı var)*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik